# Gəncədə yeni parkın açılışı olub





Gəncədə bəstəkar Qəmbər Hüseynlinin məzarüstü abidəsinin ətrafında salınan parkın açılışı olub. Açılış mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, idarə, müəssisə və təşkilatların rəhbərləri, kollec direktorları, həmçinin bəstəkarın ailə üzvləri iştirak etmişlər.

Diqqətə çatdırılmışdır ki, Qəmbər Hüseynlinin məzarının ətrafında balaca fidanlar üçün park salınması çoxsaylı şəhər sakinlərinin xahişi nəzərə alınmaqla həyata keçirilmiş və parkın açılışı görkəmli



bəstəkarın doğum gününə təsadüf etmişdir. Sonra iştirakçılara görkəmli bəstəkarın həyat və yaradıcılığı barədə ətraflı məlumat verilmiş və qeyd olunmuşdur ki, 16 aprel 1916-cı ildə Gəncədə dünyaya göz açan Qəmbər Hüseynli bütün həyatı boyu professional musiqi sənətimizin zənginləşməsinə xidmət etmişdir. Dünya xalqları Qəmbər Hüseynlini məşhur "Cücələrim" mahnısı ilə tanısalar da, bəstəkarın Azərbaycan xalqı tərəfindən sevilərək dinlənilən digər bəstələri də vardır. Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romanslar mühüm yer tutmuşdur.

Gəncə Uşaq evi sakinlərinin çıxışından sonra iştirakçılar yeni istifadəyə verilən parkda körpə və uşaqların oynaması və istirahət etməsi üçün yaradılan şəraitlə tanış olmuşlar. Burada quraşdırılmış müxtəlif attraksionlar, idman qurğuları və oturacaqlar balaca fidanlarda xoş təəssürat yaratmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-18 aprel.- S.11.